**«Təsdiq edilmişdir»**
**"Bakı Fond Birjası" QSC-nin**
**İdarə Heyəti**
**Protokol № 08**
**"30" dekabr 2015-ci il**

**Sədr ______________ F.Əzizov**

# "Bakı Fond Birjası" QSC-nin məlumatların açıqlanması üzrə Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 46.1.9-cü maddəsinə (bundan sonra – Qanun) və Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (bundan sonra – Komitə) tərəfindən qəbul edilmiş normativ-hüquqi aktlara, "Bakı Fond Birjası" QSC-nin (bundan sonra - Birja) nizamnaməsinə uyğun hazırlanmışdır.

1.2. Bu Qaydalar Birja əməliyyatlarının şəffaflığına, investor və digər bazar iştirakçılarına ticarət məlumatı və ticarətlə əlaqəli digər məlumatların vaxtında və dəqiq çatdırılmasını təmin etmək məqsədilə ticarətdən əvvəl və ticarətdən sonrakı məlumatların, o cümlədən, emitent hesabatları, Birjanın fəaliyyəti ilə əlaqədar olaraq digər məlumatların açıqlanması qaydalarını müəyyən edir.

1.3 Bu Qaydalar Birjanın bütün rəhbər heyətinə, əməkdaşlarına, listinqdə olan qiymətli kağızların emitentlərinə o cümlədən, bu Qaydalar ilə tənzimlənən məlumatları istifadə edən, paylaşdıran və açıqlayan şəxslərə şamil edilir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydalarda isitfadə olunan əsas anlayışlar aşağıdakılardır:

2.1.1. **Ticarət sistemi** - ticarətin keçirilməsi üçün nəzərdə tutulmuş proqram-texniki vasitələrin məcmusu;

2.1.2. **Ticarət üsulu** - birjanın ticarət sistemi vasitəsi ilə sifarişlərin uzlaşması yolu ilə əqdlərin bağlanılması üsuludur;

2.1.3. **Ticarət günü** - birja tərəfindən qeyri-ticarət günü olaraq elan edilməmiş iş günüdür. Baza aktivləri xarici bazarlarda ticarət olunan törəmə maliyyə alətləri ilə ticarət təşkil olunduqda, ticarət günləri həmin bazarlarda tətbiq edilən iş günləri olaraq qəbul edilir;

2.1.4. **Ticarət saatları** - birjada ticarət gününün ticarətin keçirildiyi hissəsidir;

2.1.5. **Kotirovka** - qiymətli kağızlarının alınması və ya satılması üçün ticarət iştirakçısının təklif etdiyi qiymətdir;

2.1.6. **Kotirovka spredi** - market meykerin alış və satış qiymətlərini müəyyən edərkən riayət etməli olduğu, qiymətli kağızların cari qiymətinə nəzərən aşağı və yuxarı qiymət dəyişməsi arasındakı fərqdir;

2.1.7. **Kross sifariş** - birjanın ticarət sistemində sifarişlərin reyestrinə daxil edildiyi zaman kross əqdin bağlanılmasına səbəb ola biləcək sifarişdir;

2.1.8. **Kross əqd** - birja üzvünün eyni bir əqd üzrə həm alıcının, həm də satıcının kontragenti qismində çıxış etdiyi əqdlərdir;

2.1.9. **Ticarət simvolu** - birjada ticarətə buraxılan hər bir qiymətli kağız və törəmə maliyyə alətini ticarət sistemində identifikasiya edən qısa koddur.

2.1.10. **Təminat əmsalı** - repo müddəti ərzində Repo predmeti olan investisiya qiymətli kağızlarının bazar qiymətinin aşağı düşməsi zamanı repo üzrə öhdəliklərin yerinə yetirilməməsi risklərinin qarşısının alınması məqsədi ilə

Repo açılış qiymətinin hesablanması üzrə birja tərəfindən tətbiq edilən əmsaldır.

2.1.11. **Mübahisələrin həll edilməsi Komissiyası -** Birjanın komitə və komissiyalarının qərarlarına qarşı şikayətə baxan, Birja qaydalarının şərh edilməsi və həmçinin Birjada yaranmış mübahisələrin həlli funksiyasını daşıyan komissiyadır;

2.1.12. **Rüsum (tarif) cədvəli:** Bakı Fond Birjasının göstərdiyi xidmətlərə görə tutulan rüsumların cədvəli;

2.1.13. **Emitent:** investisiya qiymətli kağızlarının emissiyasını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirən şəxs, dövlət (müvafiq qaydada buna səlahiyyətləndirilmiş dövlət orqanı vasitəsilə) və ya bələdiyyə;

2.1.16. **Məlumat təminatçıları -** Birja ilə bağlanılan müqavilənin şərtlərinə, həmçinin bu Qaydalar uyğun olaraq Birjadan məlumatı kommersiya məqsədləri ilə satın alan qurumlar.

## 3. Birja tərəfindən açıqlanan məlumatlar

3.1. Birja tərəfindən aşağıdakı məlumatlar açıqlanır:

3.1.1. ticarətə buraxılmış qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətdən əvvəl və ticarətdən sonrakı məlumatlar,

3.1.2. qiymtəli kağızların listinqi və həmçinin emitentlər tərəfindən təqdim edilən məlumatlar,

3.1.3. Birjanın öz fəaliyyəti ilə bağlı məlumatları.

3.2. Ticarətdən əvvəl və ticarətdən sonrakı məlumatların açıqlanması maliyyə bazarlarının sabitliyinin pozulması və ya ölkə iqtisadiyyatına mənfi təsir göstərə bildiyi təqdirdə, Komitə məlumatların açıqlanmasını təxirə salır. Həmin məlumatların açıqlanması Komitənin Birjaya təqdim etdiyi yazılı bildiriş əsasında təxirə salınır.

3.3. Birja ticarət zamanı bu Qaydaların 4.1-ci və 4.4-cü bəndləri ilə müəyyən edilən məlumatların bütün üzvlər üçün eyni səviyyədə açıq olmasını təmin edir.

## 4. Ticarətdən əvvəl və ticarətdən sonrakı məlumatın Birja tərəfindən açıqlanması

4.1. Birja ticarət üsulundan asılı olaraq qiymətli kağızlarla (qiymətli kağızların yerləşdirilməsi üzrə keçirilən hərraclar istisna olmaqla) və törəmə maliyyə alətləri ilə bağlı aşağıdakı məlumatları ticarətdən əvvəl davamlı olaraq ticarət sistemi vasitəsilə birja üzvlərinə açıqlayır:

4.1.1. fasiləsiz ticarət zamanı bir qiymətli kağız və ya törəmə maliyyə aləti üzrə eyni qiymət ilə yerləşdirilmiş sifarişlərin və həmin sifarişlərdə əks olunmuş qiymətli kağızların ümumi sayını, həmçinin qiymətli kağız və ya törəmə maliyyə alətinin kodu, növü və qiymətli kağızın emitentinin adı göstərilməklə, ən azı 5 ən yaxşı alış və satış təklifini;

4.1.2 kotirovkalara əsaslanan ticarət zamanı hər marketmeyker tərəfindən yerləşdirilən ən yaxşı alış və satış kotirovkasını;

4.1.3. auksion (hərrac) ticarəti zamanı hər qiymətli kağız və ya törəmə maliyyə aləti üzrə ticarət alqoritmini ən iri ticarət həcmini təmin edən qiyməti və həmin qiymət səviyyəsində alınıb-satıla biləcək qiymətli kağızların sayını, həmçinin qiymətli kağız və ya maliyyə alətinin kodunu, növünü və qiymətli kağızın emitentinin adını;

4.1.4. birjanın ticarət üsulu bu Qaydanın 4.1.1-4.1.3-cü yarımbəndlərində göstərilən ticarət üsullarının heç birinə uyğun olmadıqda və ya həmin üsulların bir neçəsinin birləşməsindən təşkil edildikdə, sirafişlərin və ya kotirovkaların qiymətini və həmin sirafiş və kotirovkalarda əks olunmuş qiymətli kağızların sayını, qiymətli kağız və ya törəmə maliyyə alətinin kodunu, növünü və qiymətli kağızın emitentinin adını.

4.2. Birjanın ticarət sisteminə kross sifarişlər yerləşdirildiyi halda, Birja bu

Qaydanın 4.1.1-ci yarımbəndi ilə müəyyən edilən məlumatlardan əlavə olaraq, bu barədə məlumatı ticarət sistemi vasitəsilə açıqlayır.

4.3. Ünvanlı satış əqdləri üzrə yerləşdirilmiş sifarişlərə dair ticarət öncəsi məlumatlar Birja tərəfindən açıqlanmır.

4.4. Birja repo əməliyyatları üzrə aşağıdakı məlumatları açıqlayır:

4.4.1. repo predmeti olan investisiya qiymətli kağızları;

4.4.2. təminat əmsalı (faizlə);

4.4.3. repo predmeti ola bilən investisiya qiymətli kağızlarının cari qiyməti;

4.4.4. repo açılış qiyməti.

4.5. Bu Qaydanın 4.1-ci və 4.4-cü bəndlərində göstərilən məlumatlar Birja tərəfindən ödənişli əsaslarla real-vaxt rejimində birja üzvü olmayan şəxslərə açıqlana bilər. Həmin məlumatların açıqlanmasının şərtləri, ödənişlər (nəzərdə tutulduqda) birja üzvü olmayan şəxslərlə bağlanılmış müqavilə əsasında müəyyən edilir.

4.6. Birja ticarətə buraxılmış hər qiymətli kağız üzrə bağlanmış əqdlərə dair (ünvanlı satış əqdləri istisna olmaqla) aşağıdakı ümumiləşdirilmiş məlumatları (ticarətdən sonrakı məlumatları) ticarət gününün sonunda öz internet səhifəsi vasitəsilə açıqlayır:

4.6.1. əqdlərin ümumi sayı;

4.6.2. əqdin keçirildiyi tarix (gün-ay-il);

4.6.3. əqdin predmeti Azərbaycan Respublikasının ərazisində buraxılmış qiymətli kağızlar olduqda, onların buraxılışının dövlət qeydiyyat nömrəsi, ölkə hüdudlarından kənar buraxılan qiymətli kağızlar olduqda isə İSO 6166 beynəlxalq standartına uyğun olaraq, beynəlxalq eyniləşdirmə kodu (İSİN) və ya onların buraxıldığı ölkədə qiymətli kağızların identifikasiya edilməsi üçün müəyyən edilmiş digər kodu;

4.6.4. əqdin predmeti olan qiymətli kağızların emitentinin tam adı;

4.6.5. əqdin predmeti olan qiymətli kağızların növü;

4.6.6. ticarət günü ərzində qeydə alınmış maksimal alğı-satqı qiyməti;

4.6.7. ticarət günü ərzində qeydə alınmış minimal alğı-satqı qiyməti;

4.6.8. qiymətli kağızın açılış qiyməti;

4.6.9. qiymətli kağızın bağlanış qiyməti;

4.6.10. əqd üzrə ödəniş vasitəsi kimi istifadə edilən İSO 4217 beynəlxalq standartına uyğun olaraq, valyuta kodu. Əqdin predmeti istiqraz olduqda qiymət faizlə ifadə olunur;

4.6.11. əqdlərin predmeti olan qiymətli kağızların sayı;

4.6.12. əqdlərin məbləği.

4.7. Birja hər bir qiymətli kağız üzrə ticarət günü ərzində bağlanılmış ünvanlı əqdlərin ümumi həcmi üzrə məlumatı ən geci növbəti ticarət günü ərzində açıqlayır.

4.8. Birja tərəfindən açıqlanmış əqdlərə dair məlumatlarda dəyişikliklər baş verdikdə Birja bu barədə öz internet səhifəsi vasitəsilə məlumat açıqlayır.

4.9. Birja ticarətə buraxılmış qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə aşağıdakı məlumatları hesabat ayından sonrakı ayın 5 (beş) iş günündən gec olmayaraq açıqlayır:

4.9.1. ilkin bazarda bağlanmış əqdlərin sayı və məbləği (ümumi və hər növ qiymətli kağız və törəmə maliyyə aləti üzrə ayrı-ayrılıqda);

4.9.2. təkrar bazarda bağlanmış əqdlərin sayı və məbləği (ümumi və hər növ qiymətli kağız və törəmə maliyyə aləti üzrə ayrı-ayrılıqda);

4.9.3. hər investisiya şirkəti tərəfindən bağlanmış əqdlərin sayı və məbləği (ümumi və hər növ qiymətli kağız və törəmə maliyyə aləti üzrə ayrı-ayrılıqda).

4.10. Birja ticarətə buraxılmış hər bir qiymətli kağız və törəmə maliyyə aləti üzrə hər təqvim ili üçün aşağıdakı məlumatları növbəti ilin birinci ayının 15 (on beş) iş günündən gec olmayaraq açıqlayır:

4.10.1. orta gündəlik dövriyyə (qiymətli kağız və ya törəmə maliyyə aləti ilə təqvim ili ərzində bağlanmış əqdlərin məbləğinin, həmin ildə olan ticarət günlərinin sayına nisbəti kimi hesablanır (ünvanlı satış əqdləri nəzərə alınmaqla));

4.10.2. əqdlərin orta gündəlik sayı (qiymətli kağız və ya törəmə maliyyə aləti ilə təqvim ili ərzində bağlanmış əqdlərin sayının, həmin ildə olan ticarət

günlərinin sayına nisbəti kimi hesablanır (ünvanlı satış əqdləri nəzərə alınmaqla)).

4.11. Birja bu Qaydanın 4.6.1 - 4.6.3-cü və 4.6.5 - 4.6.12-ci yarımbəndləri ilə müəyyən edilmiş məlumatlardan əlavə törəmə maliyyə aləti üzrə aşağıdakı məlumatları açıqlayır:

4.11.1. törəmə maliyyə alətinin baza aktivi;

4.11.2. müqavilələrin sayı;

4.11.3. fyuçerslər üzrə öhdəliklərin icra olunması günü və/ və ya opsionların ödəmə tarixi;

4.11.4. son ticarət günü;

4.11.5. gündəlik ticarət saatları;

4.11.6. qiymət dəyişməsinin həddi;

4.11.7. ödəmə üsulu;

4.11.8. törəmə maliyyə alətləri üzrə marketmeyker fəaliyyəti barədə qeyd.

4.12. Baza aktivlərinin qiyməti, gəlirliliyi və məzənnə fərqi üzrə dəyişikliklər ilə aparılan marja ticarəti üzrə bağlanmış əqdlərə dair bu Qaydanın 4.6.2-ci və 4.6.12-ci yarımbəndlərində qeyd edilən məlumatlar, həmçinin həmin əqdlərin predmetinin Birja tərəfindən müəyyən edilmiş ticarət simvolu və əqdlərin predmeti olan baza aktivləri barədə məlumat bu Qaydanın 4.6-ci bəndi ilə müəyyən edilmiş qaydada açıqlanır.

4.13. Birja bu Qaydanın 4.6 - 4.12-ci bəndlərində qeyd edilən məlumatlara, həmin məlumatların açıqlandığı tarixdən 6 (altı) ay ərzində sərbəst çıxış imkanını təmin edir.

## 5. Birjanın fəaliyyətinə dair və emitentlər tərəfindən təqdim edilən məlumatların açıqlanması

5.1. Birja öz fəaliyyətinə dair aşağıdakı məlumatların öz internet səhifəsində açıqlanmasını təmin edir:

5.1.1. Birjanın üzvləri barədə (adı, fəaliyyət növləri, üzvlüyün tarixi, əlaqələndirici şəxs, əlaqə vasitələri, üzvlərin renkinqi);

5.1.2. Birjada marketmeyker fəaliyyətini həyata keçirən investisiya şirkətləri barədə (adı, öhdəliklərinin həcmi, marketmeyker olduqları qiymətli kağızlar);

5.1.3. qiymətli kağızları ticarət olunan emitentlər barədə (adı, ünvanı, qiymətli kağızlarının parametrləri);

5.1.4. ticarət saatları və Birja tərəfindən ticarəti təşkil edilən bazarlar barədə (Birjanın ticarət qaydaları ilə müəyyən olunmuş bazarlar və bu bazarlarda ticarətin təşkil olunduğu saatlar);

5.1.5. Birja tərəfindən təqdim edilən xidmətlər barədə;

5.1.6. Birja tərəfindən hesablanan indekslər və onların hesablanması qaydası barədə;

5.1.7. Birjanın xidmət haqları barədə;

5.1.8. Birjanın daxili qayda və prosedurları barədə;

5.1.9. Birjanın illik hesabatları;

5.1.10. Birjanın təşkilati strukturu barədə;

5.1.11. kotirovkanın minimal həcmi barədə;

5.1.12. kotirovka spredinin maksimal və minimal hədləri barədə;

5.1.13. Birja üzvlərinə qarşı tətbiq etdiyi sanksiyalar barədə;

5.1.14. reponun predmeti olan qiymətli kağızların siyahısı;

5.1.15. hərracın keçirilməsinin şərtləri barədə məlumat;

5.1.16. marja hədləri barədə məlumat.

5.2. Bu Qaydanın 5.1.7-5.1.8, 5.1.11-5.1.12 və 5.1.14-5.1.16-cı yarımbəndlərində qeyd edilən məlumatlar, həmin məlumatlarda dəyişiklik baş verdiyi andan 5 (beş) iş günü ərzində açıqlanır.

5.3. Qanunla emitentlər tərəfindən Birjanın internet səhifəsi vasitəsilə açıqlanması müəyyən edilən məlumatlar emitentlər tərəfindən Birjaya təqdim edildiyi andan 1 (bir) iş günü ərzində Birja tərəfindən açıqlanır.

## 6. Qiymətli kağızlar və törəmə maliyyə alətlərinin ticarətə buraxılmasına dair məlumatlar

6.1. Birja qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin ticarətə buraxılması, ticarətin dayandırılması və ya onların ticarətdən çıxarılmasına dair aşağıdakı məlumatların 1 (bir) iş günü ərzində öz internet səhifəsində açıqlanmasını təmin edir:

6.1.1. kütləvi təklif edilən investisiya qiymətli kağızlarına abunə yazılışının başlanılması barədə;

6.1.2. qiymətli kağızların listinqə daxil edilməsi və delistinqi barədə;

6.1.3. ticarətə buraxılmış və ticarəti dayandılmış qiymətli kağız və ya törəmə maliyyə aləti barədə;

6.1.4. ticarəti dayandırılmış qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətin bərpa edilməsi barədə;

6.1.5. qanunvericiliklə birja tərəfindən açıqlanmalı olan digər məlumatlar.

## 7. Məlumatların açıqlanması qaydası

7.1. Ticarət məlumatları real vaxt rejimində (cari), gecikdirilmiş (yekun) formada təqdim olunur.

7.2. Real vaxt rejimində təqdim olunan ticarət məlumatları birjanın ticarət sistemindən, məsafədən qoşulma iş yeri və ya birbaşa məlumat yayımı serverlərinə qoşulma vasitəsilə elektron şəkildə əldə edilir. Real vaxt rejimində təqdim olunan ticarət məlumatlarından ticarətə buraxılmış bütün birja üzvlərinin istifadəsi birja tərəfindən təmin edilir. Digər maraqlı tərəflərin bu məlumatlardan istifadəsi birjanın İdarə heyəti tərəfindən müəyyən edilr və əlavə müqavilə ilə tənzimlənir.

7.3. Birja bu Qaydaların 4.6-cı bəndində qeyd olunan gecikdirilmiş formada (yekun) təqdim olunan ticarət məlumatlarını ticarət əməliyyatları bitdikdən sonra ticarət günün sonunadək öz internet səhifəsi vasitəsilə açıqlayır.

7.4. Birja məlumat təminatçılarına ticarət məlumatlarını müqavilə əsasında təqdim edir. Məlumat təminatçıları ilə müqavilə bağlandıqda, müqaviləyə açağıdakılar daxil edilir:

7.4.1. Məlumat təminatçılarına təklif edilən məlumat paketlərinin məzmunu və strukturu;

7.4.2. Müxtəlif məlumat paketləri üzrə tətbiq olunan tariflər;

7.4.3. Ticarətdən əvvəl və ticarətdən sonrakı məlumatlar və ya digər istinad məlumatlarından istifadə etmək üçün məlumat təminatçıları üçün nəzərdə tutulan texniki tələblər.

7.5. Birja üzvləri də ticarət sistemi vasitəsilə real vaxt rejimində məlumatından istifadə edə bilər. Üzv tərəfindən bu növ məlumatların istifadəsi ilə bağı şərtlər həmin üzv ilə Birja arasında bağlanmış müvafiq müqavilə ilə tənzimlənir.

7.6. Gecikmiş və günün sonuna olan məlumat Birja tərəfindən pulsuz və ayrı-seçkiliyə yol vermədən bütün investorlara və digər bazar iştirakçılarına ötürülməlidir.

## 8. Digər icbari xarakterli məlumatların dərc edilməsi

8.1. Birja aşağıdakı qaydaları və məlumatları öz internet səhifəsində açıqlayır:

8.1.1. Listinq Qaydaları;

8.1.2. Üzvlük Qaydaları;

8.1.3. Ticarət Qaydaları;

8.1.4. Məlumatın açıqlanması Qaydaları;

8.1.5. İndekslər üzrə Qaydalar;

8.1.6. Bazardan sui-istifadənin qarşısının alınması Qaydaları;

8.1.7. Etik davranış Qaydaları;

8.1.8. Mübahisələrin həlli Qaydaları;

8.1.9 Ticarət və listinq üzrə tariflər;

8.1.10. Emitentin, üzvlərin və ya investorların ticarət əməliyyatlarında iştirak etmək üçün əhəmiyyət kəsb edən qaydalar;

8.1.11. Ticarət əməliyyatlarında iştirak etmək üçün əhəmiyyət kəsb edən və ya investorların maraqlarına toxuna bilən aşağıdakı qurumların qərarları:

8.1.11.1 Birjanın səhmdarlarının ümumi yığıncağı;

8.1.11.2 Müşahidə Şurası;

8.1.11.3 İdarə Heyəti;

8.1.11.4 Listinq Komitəsi;

8.1.11.5 Üzvlük Komissiyası;

8.1.11.6. Mübahisələrin Həlli Komissiyası.

8.2. Birja qaydaları və ya qanunda digər hallar nəzərdə tutulmayıbsa, bu Qaydaların 8.11-ci bəndində qeyd olunmuş qurumların qərarları ən geci qüvvəyə mindiyi gün ictimiayyətə açıqlanmalıdır. Qaydalar, ticarət və listinq üzrə tariflərin qüvvəyə minmə tarixi onların təsdiqinə dair qərarlarda müəyyən edilir.

8.3. Birja həmçinin aşağıdakı məlumatları öz internet səhifəsində açıqlayır:

8.3.1. təşkilati və idarəetmə strukturu, (səhmdarların siyahısı, Müşahidə, İdarə Heyəti və bütün Komitələrin üzvləri);

8.3.2. listinqdə olan, ticarət edilən alətlərin siyahısı və onların emitentləri;

8.3.3. marketmeyker tərəfindən likvidliyi təmin edilmiş qiymətli kağızlar və törəmə maliyyə alətləri;

8.3.4. emitentin, üzvlərin, məlumat təminatçıların və ya investorların ticarət əməliyyatlarında iştirak etmək üçün əhəmiyyət kəsb edən və ya investorların maraqlarına toxuna bilən məlumatlar.

## 9. Digər icbari xarakterli məlumatların açıqlanması metodu

9.1. Birja digər icbari xarakterli məlumatları ən qısa zaman ərzində öz internet səhifəsində dərc etməlidir. Bu tip məlumat təmənnasız olaraq ictimaiyyətə açıqlanır.

9.2. İnternet səhifəsindən əlavə digər məlumat daşıyıcısında məlumatın ötürülməsinə və həmçinin məlumatın toplanılması, xülasə halında verilməsi və ya əvvəlki tarixlər üzrə məlumatların verilməsinə görə Birja müvafiq ödəniş tələb edə bilər.

9.3. Birja məlumat məsullarını müqavilə əsasında məlumatların açıqlanması üzrə rüsm tətbiq edə bilər.

9.4. Birja aşağıdakı məlumatları ödəniş əsasında açıqlaya bilər:

9.4.1 Real vaxt rejimdə açaqlanan, o cümlədən bu Qaydaların 4.1 və 4.4-cü bəndlərində qeyd olunan məlumatlar;

9.4.2 Birja tərəfindən hazırlanmış təhlillər, proqramlar, statistik göstəriciləri özündə əks etdirən informasiya məhsulları;

9.4.3 Qanunvericiliklə açıqlanması məcburi hesab edilməyən, habelə tarixi və dövri statistik göstəricilər.

## 10. Məsuliyyət

10.1. Birja bu Qaydalara uyğun olaraq açıqladığı məlumatın dəqiqliyini, etibarlılığını, bütövlüyünü və ardıcıllığını təmin etmək məqsədilə bütün lazımi tədbirləri görməlidir.

10.2. Birja açıqlanan məlumatların aşağıdakılara uyğunluğunu təmin edir.

10.2.1 məlumatlar lazımi qaydada və peşəkar səviyyədə hazırlanmalı;

10.2.2 məlumatlar təhqiredici və böhtanlı olmamalı, məlumatın qorunması qanununun tələblərini pozmamalıdır;

10.2.3 müvafiq bank, fond birjası qaydaları və ya qanunvericiliyin tələblərini pozmamalıdır.

10.3. Birja bu Qaydalarda göstərilən məlumatın gecikməsi, qeyri-dəqiqliyi, səhvliyi və ya buraxılması səbəbindən dəymiş zərərə görə heç bir məsuliyyət daşımır.

10.4. Bu Qaydalarda qeyd olunan məlumatlardan icazəsiz istifadə və ya sui-istifadə nəticəsində dəymiş zərərə görə Birja heç bir məsuliyyət daşımır.

10.5. Bu Qaydalarda qeyd edilən məlumatın açıqlanması qaydasına uyğun olaraq, məlumatların dərc edilməsi üçün nəzərdə tutulan proqramın təhlükəsiz və davamlı fəaliyyətini təmin etmək üçün Birja bütün lazımi tədbirləri görür və bütün səhv və texniki çətinlikləri qısa müddət ərzində aradan qaldırır.

10.6. Birja aşağıdakılara görə məsuliyyət daşımır:

10.6.1. Emitentlərdən qəbul edilən məlumatların məzmunu, dəqiqliyi və vaxtında verilməsi,

10.6.2. üçüncü tərəflərin proqram təminatından icazəsiz istifadəsi nəticəsində dəyən zərər,

10.6.3. Fors major hadisələri nəticəsində yaranan hadisələr (elektrik enerjisinin kəsilməsi, telekommunikasiyada yaranan nöqsanlar, internet xidmətində fasilələr, hər hansı avadanlığın fəaliyyətində yaranmış fasilələr və digər).

10.7. Məlumat Təminatçıları və Emitentlər Birjadan daxil olan məlumatın son istifadəçilərə paylanılmasını və bu Qaydalara uyğun olaraq təqdim edilən məlumatların vaxtında verilməsini təmin etməlidirlər.